## Ata  ocaği

Bir zamanlar milli düşüncəmizdə müqəddəs sayılan ata ocağı anlamı indi yaddaşdan sıxışdırılıb. Yeni nəsil, əslində, bu xüsusda təsəvvürə malik deyil. Ancaq sınanmış gerçəkdir: yurd yaddaşı, vətən hissi həmin ilk başlanğıcdan nəşət edir.

Hamlet İsaxanlının yaxınlarda nəşr etdirdiyi "Ziyarət" poemasını oxuyan buna bir daha inanır. Bu poemanı öz ata ocağı haqqında kədərlə sevinc qarışıq xatirələri əsasında yazıb. Burda əks edilən əsas əhvalatları yaxından izləmək, bunların mənasına varmaq – oxucunu düşündürür.

Hamlet İsaxanlının "Ziyarət"i  yazmasını şərtləndirən əsas səbəbdən başlayaq. Onun Xəzər Universitetinin rektoru vəzifəsində, ictimai fəaliyyətdə gərgin çalışdığını hamı yaxşı bilir. Bununla birlikdə, tez-tez xarici ölkələrdə ezamiyyətdə olur. Kəndimizə (Borçalının Qarayazı bölgəsinin Kosalı kəndinə) yalnız hərdən imkan olanda gedə bilir.  Doğma kəndinə gələndə sanki arzuladığı bir ziyarətgaha qovuşur. Bu ziyarətgahla bağlı yaddaşı yenə oyanır, xəyal dünyasında əziz xatirələri yenidən canlanır. Oxucu poemanın əzəlindən başlamış bütün bunları diqqətlə izləyir:

...Şükür gəldik kəndimizə

Bu nə gözəl ziyarətdir!

Güllər tanış, qoxu tanış,

Göy otların çoxu tanış,

Ocaq tanış, tüstü tanış,

Kəndin altı, üstü tanış...

Bu sadə müşahidədə kəndin zahiri təbiətinin bir vaxtlar oyatdığı  hissi  təəssürat təzələnir. İndi mövcudluğunu saxlayan ilk yurdla təkrar tanışlıq – sevindirir. "Biz həmişə öz ilk təəssüratlarımızı daha çox sevirik" – Aristotel gerçəyi dəqiq deyib.

Belə anlarda xəyal indi mövcud olanla tanışlıqla məhdudlaşmır. Zaman axarında keçmiş günləri düşünməyə çəkir fikrin səmtini. Xatirəyə dönən doğmalar yada düşür; ayrılıq kədəri doğurur:

Bəs nədən qərib kimiyəm,

Yenə yol çəkir gözlərim?

Niyə belə kədərliyəm,

Pərişandır nəğmələrim.

Hamlet İsaxanlı bu üzüntünün səbəbini "Böyüklərim yada düşdü" sərlövhəli sətirlərdə oxucusuna bildirir. O, burda nəslinin böyüklərini – babasını, atasını, nənəsini ehtiramla xatırlayır, ruhlarını şad edir. Babası qaçaq İsaxan qarayazılıların yaddaşında silinməz izlər buraxıb. O, tərəfdarlarilə birgə Sovet hakimiyyətinə qarşı mübarizə aparmışdı. Hökumət onu hiylə ilə ələ keçirib, həlak etmişdi. Onun taleyini bu sətirlərdə çox qısa tərzdə ümumiləşdirir:

Əyrilərə baş əyməyən

Doğru yolda oda düşdü.

Bu anım silsiləsində atası Abdulla İsayevlə bağlı şeir parçasını az sonra gətirəcəm. Abdulla ilə Kosalı məktəbində bərabər oxumuşuq; şagirdlik illərimizdən başlayaraq səmimi dost olmuşuq. Sonralar eyni məktəblə müəllim işlədik, dostluğumuz davam etdi. Sənətini gözəl bilən riyaziyyat müəllimi olaraq nüfuz qazandı. Mən sonra Bakıda elmi işdə, ali məktəbdə çalışanda, əsasən yayda kənddə görüşürdük. Bir yay görüşə bilmədik: kəndə gəlməyimin ertəsi günü Abdulla qəzada həlak olmuşdu. Onun ömrünün yetkinlik dövründə ölümü hər birimizi sarsıtdı. Həmin sarsıntını bu gətirilən şeir parçasında ifadə edib:

Atam comərd bir insandı

El-obaya yaraşandı –

Ağlı iti, qəlbi yumşaq,

Tez yetişdi, tez də yandı.

Bəzən tale haqqı dandı –

Ağrı çəkdi neçə uşaq

Rüzgarı sərt, qəlbi yumşaq.

"Böyüklərim yada düşdü" şeirini tamamlayan xatirədə nənəsinin xoş təbiətli, mehriban surətini canlandırır. Bu surətlə əlaqəli bir cəhəti qeyd etmək istəyirəm. Zeynəb xala (ona belə müraciət edirdim) talenin çox sərtliklərini görmüş qadın idi. Ancaq çəkdiyi əzablar, çətinliklər onun təbiətini sərtləşdirə bilməmişdi. Şeirdə onun lütfkar xasiyyətə malik olması kövrək duyğularla, həqiqətə uyğun təsvir edilib:

Mən qapıya yetişəndə

Qarşılardı nənəm özü.

Qucaqlayıb öpüşəndə

Nur saçardı qəmər üzü.

Sinəsinə döyə-döyə

“Atam-anam sənsən” deyə

Dönə-dönə yalvarardı,

Mələkmisal lütfü vardı.

Dünyadan köçənlərini ehtiramla xatırlayıb, müqəddəs borcu yerinə yetirir. Belə məqamda adətən Vurğunun sözünü təkrarlayırıq:

“Bizdən əvvəl köçənlərə borcumuzdu bu ehtiram”.

Ancaq həyat davam edir; onun öz qayğıları var. Hamlet İsaxanlı kənddə müxtəlif insanlarla görüşündən söz açır. Həmkəndliləri özləri onunla görüşməyə gəlir, ürəklərindən keçənləri bölüşürlər. “Qismətdənmiş bu görüşmək” deyən dövrünü keçirmiş bir nurani ağsaqqalın söhbətinə qulaq asır. Bu ağsaqqal, xalqımızı şöhrətləndirən alimin ölkələri dolaşdığını bilir:

Deyirlər ki, neçə dəfə

Neçə dəryalar aşıbsan,

Alosmandan o tərəfə

Gedib gəzib dolaşıbsan.

Yaxşı deyiblər dədələr:

Çox gəzib-görən çox bilər.

İxtiyar öz söhbətində xüsusən indi kəndin durumundan danışır. Gənclərin zəhmətdən uzaqlaşması, əkib-becərməyi yadırğaması, işsizliyin hökm sürməsi – onu ağrıdan bunlardır. Varlığı çətin zəhmətdən yoğrulmuş bu əkinçi baba əslində xalqın rəyini ifadə edir. Xalqın əxlaq qaydaları, tüfeyli həyat keçirən hər kəsi həmişə kəskin şəkildə qınayır. İxtiyar haqlıdır: zəhmət çəkməyən, özgədən asılı duruma düşər:

...Siqareti damağında

Kəklini yan darayanlar

Eh, nə deyim, gərək onlar

İgidə yedək olmasın.

Çalışaq-vuruşaq ki, qoy

Yad ellərin qabağında

Dilimiz gödək olmasın.

Söhbətdə iştirak edən bir gənc bu zəhmətsevərlik nəsihətinə biganə atmaca ilə yanaşır. Müasir zəmanədə ağsaqqalla davranışda nəzakəti gözləməyən gənclər olur. "Sərbəstliyi" belə təsəvvür edən gənclərə nəsihət təsir göstərmir:

Ağsaqqal fikir vermədi,

Bir azca xəyala daldı.

Sakit bir neçə söz dedi,

Göstərdi ki, ağsaqqaldı.

Hamlet İsaxanlı kənddə görüşlərindən hekayətlərini maraqla davam etdirir. Ağbirçək bir qadın onun bu gəlişinə ürəkdən sevinir. Məmləkətlərdə tanınan alimin ilk yurdu ziyarətini – onun vətən sevgisinin ifadəsi kimi duyur. Torpağını, elini qəlbən sevən ziyalıya xalq məhəbbət bəsləyir. Ağbirçəyin vətənsevər düşüncəsindən süzülən sözlərin mənasına fikir verin:

Görün mənə nələr dedi:

"Əl mənim, ətək sənindi

Oğul, bizləri unutma,

Bura sənin vətənindi.

Yad eli, qonaq qalsan da,

Ürəyinə yaxın tutma,

Vətənsiz insan gün görməz,

Misirdə sultan olsan da

Vətənin yerini verməz..."

Bu qadın əmin-amanlıq istəyir; Qarabağ müharibəsinə bais olan kimsələrə lənət oxuyur. Müharibədən əvvəl yay mövsümündə elimizin Ermənistanın Qaraxaç yaylağına çıxdığını xatirə kimi danışır. İndi Qaraxaça yollar bağlanıb; dağa gedib-gələn yoxdur. Bu söhbətlə bağlı Hamlet İsaxanlı neçə bayatı yazıb. Həmin mövzunun ruhunu bu bayatı yaxşı ifadə edir:

Dağlar darda qalıbdır,

Başı qarda qalıbdır.

Gözümün nuru dağlar

Nurun harda qalıbdır?..

“Ziyarət” poemasından “Nəşə var kənd ocağında” şeirini incələyək. Vaxtilə kənd uşaqları fiziki əməklə məşğul olmağa erkən alışır, ailəyə yardımçı olurdular. Bu adət müstəqil əməyə hörmət, inam hissi oyadırdı. Hamlet İsaxanlı qış aylarında həvəslə odun yarmağından yazır. Ocağın çatır-çatır yanmasından xüsusi zövq aldığından danışır. Əslində isə, bu şeir kənd həyatının öz gözəlliyinə maraq oyatmaq niyyəti daşıyır. Anılan şeirin son hissəsini bu yazıda təqdim edək:

Ocağa hərdən odun at,

Ocaq yandıqca çat-ha-çat

Gözəlləşir, gülür həyat.

Nəşə var kənd ocağında –

Bərəkətli qucağında

Küllü kartof, çörək-pendir...

Qəlb duyğulu, sözə bənddir,

Ruhun doğum yeri kənddir...

Kəndə qonaq gəl, oxucum!

Sonrakı şeirlərinin bir qismi uşaqlıq illərinə həsr edilib. Ancaq bunların üzərində durmaq – söhbəti bir az uzadar. Buna görə “Ziyarət”in sonluğunda əks edilən hekayəti açıqlayaq.

Hamlet İsaxanlıya nənəsinin söylədiyi bu hekayət, özünün sözü ilə desək, “qəmli dastandır”. Sovet rejimilə vuruşan qaçaq İsaxan öldürüləndən sonra ailəyə baxmaq qadınının üzərinə düşmüşdü. O, övladlarını böyütmək üçün əzab-əziyyətə dözməli oldu. Xüsusən ailə sürgün ediləndə, daha müdhiş iztirablarla üzləşdi. Həmin acı gerçəyi bu təsirli sətirlərdə ayrıca vurğulayır:

Böyük nəsil düz iki il

Sürgünlərdə gün keçirdi.

Söylədiyim qəmli dastan

Qazaxıstan, Qırğızıstan

Çöllərində davam etdi.

Hər an ölüm-itim idi.

Gedəndə də, gələndə də

Dörd tərəfi yetim idi...

Əziyyətləri yenib, doğma yurda dönəndə, ruhən təmiz bir imanla, Allaha şükürlər etdi. Övladlarını vətənə sag-salamat gətirməyi, ananı xeyli ürəkləndirmişdi. İndi onları, sıxıntı çəkmədən, yaşatmaq üçün qayğı göstərirdi. Onlar böyüdülər; aralarından Abdulla İsayev kimi, Qarayazıda  hörmətlə tanınan riyaziyyat müəllimi yetişdi. Bu surət dolğun təsvir edilsəydi, daha görkəmli olardı. Yəqin "Ziyarət"in yeni nəşrində bu tövsiyə nəzərə alınacaq. Hamlet İsaxanlının bu mövzunu davam etdirməsi isə lazımdır.

Camal Mustafayev